# Fədakar tədqiqatçı



■ Asif Rüstəmli

Bölünmüş, parçalanmış tariximizin, taleyimizin mübhəm məqamlarını, təhrif olunmuş və ya ağ buraxılmış səhifələrini xüsusilə Cənub poeziya nümunələrinə istinad etməklə tədqiqata çəkən, ciddi araşdıran fədakar alimlərimizdən biri də dosent Bahar Bərdəlidir. O, bədii ədəbiyyatımıza lirik-psixoloji nəsrin çağdaş nümayəndəsi, istedadlı şair, publisist kimi daxil olsa da, ciddi tədqiqat əsərləri, Cənub poeziyasının materialları əsasında nəşr olunan araşdırmaları ədəbi ictimaiyyət tərəfindən rəğbətlə qarşılanmış, ədəbiyyatşünasların və tənqidçilərin diqqətini cəlb etmişdir. Oxuculara ünvanlanan üçcildliyin üçüncü cildi Bahar Bərdəlinin uzun illər apardığı səmərəli elmi-tədqiqat işlərinin sanballı və əhəmiyyətli bir qismidir.

Müəllif əsərlərinin üçüncü cildinə müxtəlif illərdə yazdığı "Balaş Azəroğlunun yaradıcılıq yolu", "Cənubi Azərbaycan mühacir poeziyası", "Azərbaycanda yaşayan cənublu şairlərin poeziyası müstəqillik illərində", "Qabil poeziyası müstəqillik illərində" və "Nurəngiz Gün" adlı monoqrafiyalarını daxil etmişdir. Topluda xalq şairi Balaş Azəroğluya həsr edilmiş elmi-tədqiqat işi özünün əhatəliliyi, sanbalı, aktuallığı və əhəmiyyəti ilə seçilir. Tədqiqatçı B.Azəroğlunun yalnız yaradıcılıq yolunu deyil, bütövlükdə onun həyatını, ədəbi, ictimai-siyasi mühitini dərindən araşdırmışdır.

Bahar Bərdəli zəngin qaynaqlardan, arxiv materiallarından, sənədlərdən, xatirələrdən bəhrələnərək geniş, əhatəli araşdırmalar aparmış, mövzuya sevgi və sayğı ilə yanaşaraq ədəbiyyatşünaslıq elmimizə sanballı töhfə bəxş etmişdir. O, tədqiqat işində görkəmli söz ustalarından Mehdi Hüseynin, Məmməd Rahimin, Cəfər Xəndanın, Yəhya Seyidovun, Qafar Kəndlinin, Ə.Heydərzadənin, Məsud Əlioğlunun, Bəkir Nəbiyevin, İsrafil Nəzərlinin, Oruceli Həsənovun, Arif Abdullazadənin, Sabir Nəbioğlunun və b. şəxsiyyətlərin həyat və yaradıcılığı haqqında yazdıqları əsərlərinə istinad edərək, onlardan tədqiqatın müxtəlif fəsillərində faydalanmışdır.

Tədqiqat işinin "Balaş Azəroğlunun həyatı və mühiti" adlanan birinci fəsil yeni faktlarla zəngindir və mənim fikrimcə, digər fəsillərlə müqayisədə daha dolğun və sanballıdır. Bu fəsildə mövzunun tədqiqat tarixi, ədibin həyatının Bakı dövrü (1921-1938), Cənubi Azərbaycan dövrü (1938-1947) ictimai-siyasi epoxanın mürəkkəb və ziddiyyətli hadisələri fonunda təhlil edilmiş və əsasən düzgün dəyərləndirilmişdir.

Xalq şairi Balaş Azəroğlunun həyat və yaradıcılığının bəzi mühüm məqamları ilk dəfə bu monoqrafiyada üzə çıxarılmış və təhlil edilmişdir.

Tədqiqatçı əsərində xalq şairinin poetik yaradıcılığında təcəssüm tapan duyğu və düşüncələrinin ən incə məqamlarını vurğulamaq, emosional təsir imkanlarını araşdırmaq, təhlil etmək və dəyərləndirmək kimi mühüm vəzifələrin öhdəsindən uğurla gəlmişdir.

Bütövlükdə B.Bərdəlinin "Balaş Azəroğlunun yaradıcılıq yolu" adlı monoqrafiyası zəngin elmi qaynaqlar, səmərəli tədqiqatçı müşahidələri, dərin ümumiləşdirmələr əsasında yazılmış yeni və maraqlı elmi qənaətlərin nəticəsi kimi qiymətləndirmək olar.

Müsbət fikirlərin obyektivliyinə kölgə salmadan etiraf olunmalıdır ki, Bahar Bərdəlinin elmi tədqiqatının ayrı-ayrı fəsillərində cüzi də olsa qüsurlar və kəsirlər nəzərə çarpır. Bununla belə təqdim edilən monoqrafiya yeni və zəngin materiallar əsasında işlənmiş sanballı elmi araşdırmadır. Xalq şairi Balaş Azəroğlunun şəxsiyyəti, ədəbi-bədii irsi parçalanmış Azərbaycanın mənəvi "Xüdafərin"i, birlik, bütövlük rəmzi və milli sərvətidir. Tədqiqatı bu mövzuda vaxtında yazılmış maraqlı elmi iş və çağdaş gənc nəsil üçün çox gərəkli vətənpərvərlik dərsliyi saymaq olar.

Fəlsəfə doktoru Bahar Bərdəlinin elmi monoqrafiyalar toplusunda mühüm yer tutan araşdırmalardan biri də "Cənubi Azərbaycan mühacir poeziyası" əsəridir.

B.Bərdəli milli azadlıq uğrunda xalqın dönməzliyinə, qətiyyətinə toxunarkən yazır: "B.Azəroğlu 20 Yanvar 1991-ci il Bakı qırğınının ildönümü haqqında yazdığı şeirində Təbrizin 1946-cı il dekabr günlərini də xatırlayır.

*...Əvvəl Təbrizdə qəsd*
*oldu azadlığa,*
*sonra Bakıda,*
*fəqət ölmədi azadlıq,*
*Güneydə batan günəş,*
*Quzeydə doğuldu.*
*Azadlıq ilahi nemətdir,*
*İstər gülləyə tut,*
*İstər dardan as,*
*Onu boğmaq olmaz,*
*Öldürmək olmaz.*

İnsanı boğmaq, öldürmək, məhv etmək olar. Amma onun azadlıq arzularını, duyğularını öldürmək, yox etmək mümkün deyil."




Elmi işdə tədqiqatçının seçdiyi sitatlarla, verdiyi şərhlər arasında güclü bir mənəvi siqlət, məntiqi vəhdət vardır. O, qarşısına qoyduğu missiyanı "Parçalanmış vətənin azadlıq harayı" yarımfəslində daha da uğurla davam etdirir. Görkəmli Cənubi Azərbaycan şairlərinin şeirlərini vətənpərvərlik, azadlıq, müstəqillik məcrasında, mövzular üzrə ümumiləşdirmələr aparan Bahar Bərdəli poetik yönü, ideya istiqamətini dəqiq müəyyənləşdirmişdir. Bahar Bərdəli kitabın bölmələrindən birini "Azərbaycanda yaşayan cənublu şairlərin poeziyası müstəqillik illərində" adlandırmışdır. Bu bölmədə Balaş Azəroğlu, Əli Tudə, Söhrab Tahir və Həkimə Bülluri poeziyasının istiqlal ideallarından söz açılmış, şeirlərə açıq münasibət bildirilmişdir.

Tədqiqatçı şair Əli Tudənin qürbətlə bağlı bir bayatısına müraciət edib, ona həssaslıqla yanaşmışdır:

***"Həsrətə salma məni,***
***Xiffətə salma məni,***
***Salsan da zindana sal,***
***Qürbətə salma məni!***

Demək, həsrətin, xiffətin, qürbətin ağırlığı zindan ağırlığından qat-qat çoxdur. Bəlkə elə buna görə Vətənin müstəqilliyi, azadlığı üçün döyüşənlər məğlub olanda qürbətə getməkdən çox zindana düşməyə üstünlük veriblər. Axı zindan da olsa bura Vətəndir!"

Bəli, həqiqətən də, əsl vətənpərvərlər, millətsevərlər üçün qürbət dərdi, mühacirət müsibəti zindanda, həbsdə keçən ömürdən qat-qat ağırdır. Quzey Azərbaycanda güneyli şairlər üçün geniş yaradıcılıq imkanları, iş şəraiti yaradılsa da, etiraf edilməlidir onlar özlərini qardaşlarının yanında yenə də qürbətdə hiss edirdilər. Bu intizarlı duyğular onların poeziyasında, yaradıcılığında açıq, birmənalı hiss olunurdu.

Azərbaycanda yaşayan cənublu şairlərdən Balaş Azəroğlu, Əli Tudə, Söhrab Tahir və Həkimə Bülluri poeziyasının oxşar və fərqli xüsusiyyətlərinə toxunan Bahar Bərdəli yazırdı: "Ömürlərinin müdrik çağlarını yaşayan bu insanların həyatlarında da, yaradıcılıqlarında da həm oxşar, həm də fərqli cəhətlər çoxdur. Eyni taleyi yaşamağa məcbur olan bu şairlər eyni mövzulara üz tutsalar da hər kəs öz daxili dünyasını, öz sevgisini, sevincini, kədərini poetikləşdirib... bir-birindən fərqli bu ədəbi nümunələrin eyni kökdən su içdikləri aydın görünür. Çünki duyğular, yanğı-həsrətlər ayrı olsa da, dərdləri birdir, ağrıları eynidir..."

Tədqiqatçının elmi qənaətləri ilə razılaşmamaq mümkünsüzdür. Doğrudan da, eyni dərdə, ağrıya fərqli yanaşma tərzinin bariz nümunəsi ilə bu araşdırmada üz-üzə qalırıq və müqayisələr, təhlillər problemin alt qatını, gizlin tərəflərini daha da qabarıq görünməsinə yardımçı olur.

Öncə vurğuladığımız kimi Bahar Bərdəlinin "Seçilmiş əsərləri"nin üçüncü cildinə "Qabil poeziyası müstəqillik illərində" və "Nurəngiz Günün yaradıcılığı" adlı tədqiqat işləri daxil edilmişdir.

Müəllif Xalq şairi Qabilin poeziyasının əsas ideyasını, yaradıcılığını dörd fəsildə təhlil etməyə çalışmışdır.

Bahar Bərdəli "Seçilmiş əsərləri"nin son cildində "Nurəngiz Günün yaradıcılığı"nı yüksək peşəkarlıqla, böyük sevgi ilə təhlil edib və dəyərləndirib. O "Xocalı simfoniyası"nı vətənpərvərlik mövzusunda yazılmış, "yaradana, rüzgara, ölənlərə müraciətən deyilmiş ağılar" dastanına, ağrılar çələnginə bənzədir. Tədqiqatçı N.Günün sənətkarlıq keyfiyyətlərini vurğularkən az sözlə dərin məna ifadə etmək bacarığını xüsusilə qabardaraq yazırdı: "Şairin həyatdan götürdüyü adi bir hadisə, fakt, detal poetik uğura, poeziya nümunəsinə çevrilir. İdeya baxımından da zəngin olan şair düşüncələri böyük fikir yükü ilə də qəlbə yol tapır, çünki hər misra səmimi hiss, həyəcanı əks etdirir. Təbii ki, hər bir ideya, fikir istənilən bədii əsər üçün danılmaz faktordur. Bu isə N.Gün yaradıcılığının mayasını, ruhunu təşkil edir".

Bahar xanımın təcrübəli araşdırıcılara xas incə, dəqiq müşahidələri, elmi qənaətləri ədəbiyyatşünaslığımız üçün mühüm əhəmiyyətə malikdir. Bu incələmələr Nurəngiz Gün poeziyasının sirli-sehrli qatlarının açılmasında, öyrənilməsində və təbliğində təməl, özül, bünövrə missiyası daşıya bilər.

Beləliklə, AMEA Nizami adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Bahar Bərdəlinin elmi-nəzəri düşüncələri, tədqiqat xarakterli axtarışları ilə daha dərindən tanış olduqca milli ədəbiyyatşünaslığımıza istiqlal poeziyası, cənub ədəbi mühiti üzrə fədakar bir alimin, mükəmməl və təcrübəli bir mütəxəssisin gəldiyinə sevinc hissi, məmnun-luq duyğusu yaşadığını etiraf etməkdən qürur duyursan.